“Təsdiq edilmişdir”

Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi
029 №-li Əmr

15 fevral 2000-ci il

Sədr H. Babayev

(11.04.2002-ci il tarixli 066 №-li, 23.07.2003-cü il tarixli 169 №-li Əmrlərin redaksiyasında)

# Kredit təşkilatlarının depozit sertifikatları haqqında

# Əsasnamə

## I.Ümumi müddəalar.

1.1 Bu Əsasnamə «Qiymətli kağızlar haqqında», «Banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunlarına və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 saylı Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnaməyə müvafiq olaraq hazırlanmışdır.

1.2 Depozit sertifikatı – əmanətçi tərəfindən depozitin kredit təşkilatında yerləşdirilməsini və əmanətçinin, yaxud onun hüquqi varisinin, həmin depoziti və depozit üzrə faizləri kredit təşkilatından qeydsiz-şərtsiz almaq hüququnu təsdiqləyən qiymətli kağızdır.

1.3 Bu Əsasnamə Azərbaycan Respublikasında kredit təşkilatlarının depozit sertifikatlarının (bundan sonra - «sertifikat») buraxılması, qeydiyyatı və tədavülü qaydalarını müəyyən edir.

## II. Sertifikatların buraxılmasının əsas şərtləri.

2.1 Sertifikatlar birdəfəlik qaydada, və ya seriyalarla, milli, yaxud xarici valyutada, yalnız sənədləşdirilmiş formada buraxıla bilərlər.

2.2 Sertifikatlar adlı və ya adsız ola bilərlər.

2.3 Sertifikatlar on ildən artıq olmamaq şərti ilə müddətli olmalıdırlar.

2.4 Sertifikatlar buraxıldığı valyutada ödənilməlidir.

2.5 Sertifikatlar blanklarının hazırlanması ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən bütün növ qiymətli kağızların

blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış hüquqi şəxslər məşğul ola bilərlər. Sertifikat blankının ən azı 3 qoruyucu xüsusiyyəti olmalıdır.

2.6 Sertifikat blankının məcburi rekvizitləri:
- sertifikatın adı – «adlı (yaxud «təqdim edənə») depozit sertifikatı»;
- sertifikatın dövlət qeydiyyat nömrəsi;
- sertifikatın nömrəsi və seriyası;
- kredit təşkilatının tam hüquqi adı, ünvanı və rekvizitləri;
- sertifikatla rəsmiləşdirilən depozitin məbləği (rəqəmlə və yazı ilə);
  sertifikatın verilmə tarixi;
- sertifikatın ödəniş tarixi;
- depozit üzrə faiz dərəcəsi;
- sertifikat vaxtından əvvəl təqdim edildiyi hallar üçün faiz dərəcəsi;
- kredit təşkilatının depoziti və depozit üzrə faizləri qeydsiz-şərtsiz ödəmək öhdəliyi;
- kredit təşkilatının məs'ul şəxslərinin möhürlə təsdiqlənmiş imzaları.

2.7 Sertifikatın aşağıdakı məcburi rekvizitləri özündə əks etdirən kötüyü olmalıdır:
- sertifikatın adı;
- sertifikatın dövlət qeydiyyat nömrəsi;
- sertifikatın nömrəsi və seriyası;
- kredit təşkilatının tam hüquqi adı;
- sertifikatla rəsmiləşdirilən depozitin məbləği (rəqəmlə və yazı ilə);
- sertifikatın verilmə tarixi;
- sertifikatın ödəniş tarixi;
- kredit təşkilatının məs'ul şəxsinin imzası.

  Kötük sertifikatdan ayrılaraq kredit təşkilatında saxlanılır.

2.8 Adlı depozit sertifikatının blankında və kötüyündə məcburi rekvizitlərdən əlavə aşağıdakılar əks olunmalıdır:
- əmanətçinin tam hüquqi adı, ünvanı və məs'ul şəxslərinin möhürlə təsdiqlənmiş imzaları (hüquqi şəxslər üçün);
- əmanətçinin soyadı, adı, atasının adı, pasport mə'lumatları və imzası (fiziki şəxslər üçün).

2.9 Sertifikat sahibləri onlarla alqı-satqı, girov və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə digər əməliyyatlar apara bilərlər.

2.10 Sertifikatlardan əmtəələrin alqı-satqısı və xidmətlərin göstərilməsinə görə ödəniş və ya hesablaşma vasitəsi kimi istifadə edilə bilməz.

## III. Sertifikatların dövlət qeydiyyatı.

3.1 Kredit təşkilatı sertifikatlarını yerləşdirmək hüququnu onların dövlət qeydiyyatından keçdiyi andan əldə edir.

3.2 Sertifikatların dövlət qeydiyyatından keçməsi üçün kredit təşkilatı aşağıdakı sənədləri Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə (bundan sonra - «QKDK») təqdim etməlidir:
- ərizə;
- kredit təşkilatının müvafiq səlahiyyətlərə malik olan orqanın sertifikatların buraxılması haqqında qərar;

- kredit təşkilatının nizamnaməsinin notarial qaydada təsdiq edilmiş surəti, tə’sis müqaviləsinin surəti;
- sertifikatların buraxılış şərtləri;
- sertifikat blankının nümunəsi;
- bank əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikası Milli Bankı tərəfindən verilmiş lisenziyanın notarial qaydada təsdiq edilmiş surəti;
- axırıncı hesabat dövrü üzrə mühasibat balansı;
- xarici valyutada əməliyyatların aparılması üçün Azərbaycan Respublikası Milli Bankı tərəfindən verilmiş lisenziyanın notarial qaydada təsdiq edilmiş surəti;
- kredit təşkilatının son hesabat dövrü üzrə hesablanmış məcburi iqtisadi normativləri;
- auditor tərəfindən təsdiq edilmiş, son maliyyə ili üzrə hesabat;
- sertifikatların dövlət qeydiyyatı üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.

3.3 **Çıxarılıb**

3.4 Buraxılışın şərtlərində aşağıdakı mə'lumatlar öz əksini tapmalıdırlar:
- buraxılış haqqında qərarı qəbul etmiş və buraxılışın şərtlərini təsdiq etmiş səlahiyyətli orqanın adı və qərarın qəbul edilmə tarixi;
- sertifikatların buraxılışının ümumi məbləği;
- bu buraxılışda olan sertifikatların dövriyyə müddəti;
- sertifikatlar üzrə faiz dərəcəsi;
- sertifikatların vaxtından əvvəl ödənildiyi hallar üçün faiz dərəcəsi;
- sertifikatların ödəniş qaydası.

3.5 Sertifikatların buraxılış şərtləri hər valyuta üzrə ayrı – ayrılıqda tərtib olunur.

3.6 Kredit təşkilatı QKDK-ya təqdim etdiyi sənədlərdə göstərilən mə’lumatların doğruluğuna görə mövcud qanunvericiliyə uyğun olaraq məs’uliyyət daşıyır.

3.7 QKDK sertifikatların dövlət qeydiyyatını müvafiq sənədlərin təqdim edildiyi tarixdən e’tibarən 15 gün müddətində həyata keçirməli, yaxud qeydiyyatdan imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul edib, kredit təşkilatına yazılı mə’lumat verməlidir.

3.8 QKDK sertifikatları dövlət qeydiyyatından keçirdikdən sonra kredit təşkilatına sertifikatların dövlət qeydiyyatına alınması haqqında Şəhadətnamə verilir.

3.9 Sertifikatların dövlət qeydiyyat nömrəsi bu Əsasnamənin 1 saylı əlavəsinə müvafiq olaraq verilir.

3.10 QKDK sertifikatların dövlət qeydiyyatından aşağıdakı hallarda imtina edə bilər:
- bu Əsasnamənin 3.2 bəndində göstərilən sənədlər QKDK-ya natamam şəkildə təqdim edildikdə;
- təqdim edilmiş sənədlərdə qeyri-dürüst, natamam və ya təhrif olunmuş mə'lumatlar aşkar edildikdə;
- kredit təşkilatının bank əməliyyatlarının aparılması üçün lisenziyası Azərbaycan Respublikası Milli Bankı tərəfindən ləğv edildikdə və ya lisenziyanın müvafiq müddəaları dayandırıldıqda;
- kredit təşkilatının xarici valyutada əməliyyatların aparılması üçün lisenziyası Azərbaycan Respublikası Milli Bankı tərəfindən ləğv edildikdə və ya lisenziyanın müvafiq müddəaları dayandırıldıqda;

- QKDK-nın normativ-hüquqi aktlarının müddəaları pozulduğu hallarda;
- mövcud qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

QKDK sertifikatların dövlət qeydiyyatına alınmasından imtina etdikdə təqdim olunmuş sənədlər geri qaytarılmır.

3.11 Sertifikatların dövlət qeydiyyatına alınmasından imtina edilməsi haqqında qərardan məhkəmə qaydasında şikayət verilə bilər.

3.12 Sertifikatların yerləşdirilməsi aşağıdakı hallarda dayandırılır:
- kredit təşkilatının səlahiyyətli orqanı müvafiq ərizə ilə QKDK-ya müraciət etdikdə;
- kredit təşkilatı sertifikatların buraxılış şərtlərini və QKDK-nın müvafiq normativ-hüquqi aktlarının müddəalarını pozduğu halda;
- kredit təşkilatının bank əməliyyatlarının aparılması üçün lisenziyanın ləğv edilməsi və ya lisenziyanın müvafiq müddəalarının dayandırılması haqqında Azərbaycan Respublikası Milli Bankının qərarı əsasında;
- kredit təşkilatının xarici valyutada əməliyyatların aparılması üçün lisenziyanın ləğv edilməsi və ya lisenziyanın müvafiq müddəalarının dayandırılması haqqında Azərbaycan Respublikası Milli Bankının qərarı əsasında;
- mövcud qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

3.13 Sertifikatların yerləşdirilməsinin dayandırılmasına səbəb olan hallar dəyişdikdə kredit təşkilatının müraciətinə əsasən sertifikatların yerləşdirilməsi bərpa edilə bilər. QKDK tərəfindən bu barədə qərar qəbul edildikdə sertifikatların yerləşdirilməsi bərpa edilmiş hesab olunur; həmin qərar qəbul edilmiş andan 5 (beş) gün müddətində kredit təşkilatına mə’ lumat verilir.

## IV. Sertifikatların və onlar üzrə faizlərin ödənilməsi qaydaları.

4.1 Sertifikat üzrə ödəniş sertifikat sahibinin təqdim etdiyi sertifikat əsasında həyata keçirilir. Sertifikat blankında başqa cür müəyyən edilməyibsə, adlı sertifikatlar üzrə ödəniş üçün sertifikatla yanaşı, sertifikat sahibinin şəxsiyyətini təsdiq edən sənəd də təqdim edilməlidir.

4.2 Sertifikat vaxtından əvvəl ödənilməsi üçün təqdim edildikdə kredit təşkilatı sertifikatda belə hallar üçün müəyyən edilmiş faiz dərəcəsi ilə hesablanmış faizləri və depozitin məbləğini qeydsiz-şərtsiz ödəyir.

4.3 Sertifikatın ödəniş tarixi keçəndən sonra kredit təşkilatı sertifikat sahibinin ilk tələbi ilə ödənişi qeydsiz-şərtsiz həyata keçirir.

4.4 Sertifikatlar üzrə ödənişlər, onların alqı-satqısı üzrə hesablaşmalar nağdsız və nağd qaydada həyata keçirilə bilər.

4.5 Sertifikatla rəsmiləşdirilən depozit hissə - hissə ödənilə bilməz.

4.6 Kredit təşkilatı sertifikatda müəyyən edilmiş faiz dərəcəsini birtərəfli qaydada dəyişə bilməz.

## V. Sertifikatların tədavülü.

5.1 Adsız sertifikatlar üzrə hüquqların başqa şəxsə ötürülməsi sertifikatın həmin şəxsə verilməsi ilə həyata keçirilir.

5.2 Adlı sertifikatlar üzrə hüquqların başqa şəxsə ötürülməsi tsesiya (tələb hüququnun ötürülməsi) ilə həyata keçirilir.

5.3 Tsesiya sertifikatın arxa tərəfində və ya sertifikatın ayrılmaz hissəsi olan və nömrələnmiş əlavə səhifələrdə, tələb hüququnu ötürən şəxs (tsedent) və tələb hüququnu əldə edən şəxs (tsesionari) arasında ikitərəfli razılıq şəklində rəsmiləşdirilir (əlavə 2).

5.4 Kredit təşkilatı sertifikat üzrə tsesiyaların qeydiyyatını aparır.

5.5 Sertifikatların müddəti bitdikdən sonra tsesiyanın rəsmiləşdirilməsi qadağandır.

## VI. Hesabat qaydası.

6.1. Kredit təşkilatı sertifikatların yerləşdirilməsi və ödənilməsi üzrə QKDK-ya hər rüb üçün hesabat təqdim etməlidir.

6.2. Hesabat rüb bitdikdən sonra 10 iş günündən gec olmayaraq təqdim edilməlidir.

6.3. Hesabat bu Əsasnamənin 3 saylı əlavəsinə uyğun olaraq tərtib olunur.

## VII. Məs'uliyyət.

7.1 Bu Əsasnamədə göstərilən qaydalara riayət etməyən kredit təşkilatları mövcud qanunvericiliyə uyğun olaraq məs'uliyyət daşıyırlar.

## VIII. Qüvvəyə minməsi.

8.1 Bu Əsasnamə imzalandığı gündən qüvvəyə minir.

Bakı şəhəri

***«KREDİT TƏŞKİLATLARININ DEPOZİT SERTİFİKATLARI HAQQINDA» ƏSASNAMƏYƏ 1 SAYLI ƏLABƏ***

1.1 Sertifikatların dövlət qeydiyyat nömrəsi beş dərəcədən ibarətdir - $-X_1X_1-X_2X_2X_2$:

1.2 $X_1X_1$ - kredit təşkilatının sertifikat buraxılışının sıra nömrəsi;

1.3 $X_2X_2X_2$ - kredit təşkilatının bank əməliyyatlarının keçirilməsi üçün lisenziyanın nömrəsi.

***«KREDİT TƏŞKİLATLARININ DEPOZİT SERTİFİKATLARI HAQQINDA» ƏSASNAMƏYƏ 2 SAYLI ƏLABƏ***

______________________________________________________________________

(sertifikatı buraxan kredit təşkilatının tam hüquqi adı)

№ ___________________ «___» ___________ 200 __-ci il

(tsesiyanın sıra nömrəsi)

______________________________________________________________________

(tsedentin tam hüquqi adı və ünvanı, yaxud S.A.A. və pasport mə'lumatları)

______________________________________________________________________

___________________№-li _____ seriyalı adlı depozit sertifikatı üzrə

tələb hüququnu ötürür,

______________________________________________________________________

(tsesionarinin tam hüquqi adı və ünvanı, yaxud S.A.A. və pasport mə'lumatları)

______________________________________________________________________

isə həmin hüququ əldə edir.

(tsedentin, yaxud məs'ul şəxslərin imzaları)

(tsesionarinin, yaxud məs'ul şəxslərin imzaları)

M. Y.

M. Y.

***«KREDİT TƏŞKİLATLARININ DEPOZİT SERTİFİKATLARI HAQQINDA» ƏSASNAMƏYƏ 3 SAYLI ƏLABƏ***

__________________________________________________________

(kredit təşkilatının tam hüquqi adı)

yerləşdirilmiş sertifikatları ( ______________________________ ) üzrə
(sertifikatların dövlət qeydiyyat nömrəsi)

200__-ci ilin ___ rübü üçün hesabat.

| Sertifikatın növü | Balyuta | Depozitin məbləği | Sertifikatların seriyası | Faiz dərəcəsi | Sertifikatların sayı | Sertifikatların dövriyyə müddəti | Ümumi məbləğ |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | | | | | | | |

__________________________________________________________

(kredit təşkilatının tam hüquqi adı)

ödənilmiş sertifikatları ( ______________________________ ) üzrə 200__-ci
(sertifikatların dövlət qeydiyyat nömrəsi)

ilin ___ rübü üçün hesabat.

| Sertifikatın növü | Balyuta | Ödənilmiş depozitlərin və faizlərin ümumi məbləği | Sertifikatların seriyası | Ödənilmiş sertifikatların sayı | Baxtından əvvəl ödənilmiş sertifikatların sayı |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | | | | |
| | | | | | |
| | | | | | |